## Ərdoğan: "Suriyada əməliyyatları davam etdirəcəyik"



**"Ölkəmizin təhlükəsizlik prioritetlərinə və öz planlamamıza uyğun olaraq (Suriyada - red. ) əməliyyatları davam etdirəcəyik. Bir gecə qəfil hər yerə gələ bilərik".**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Malazgirt Qələbəsinin 951-ci ildönümü münasibəti ilə çıxışı zamanı deyib.

O qeyd edib ki, cənub sərhədi boyunca 30 kilometr dərinlikdə dəhliz təmin edilməyənə qədər Türkiyə mübarizəni bitirməyəcək.

## Türkiyə lirəsi tarixi minimumu yeniləyib



**Türkiyə lirəsi ABŞ dollarına nisbətdə daha da ucuzlaşaraq tarixi minimumu yeniləyib.**

Hazırda Türkiyə birjalarında bir dollar 18,17 lirəyə bərabərdir. Eyni zamanda, bir avro 18,12 lirə ətrafında alınıb satılır.

*Qeyd edək ki, Türkiyə Mərkəzi Bankı ötən həftə ölkədə uçot dərəcəsini 14 faizdən 13 faizədək azaltmışdı. Ümumilikdə, son bir ildə Türkiyə lirəsi ABŞ dollarına nisbətdə 116,21 faiz dəyər itirib.*


№ 152 (5674), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 26 avqust 2022-ci il (cümə)





# "Səyyar ASAN" ilk dəfə...

### Türkiyədə Azərbaycan vətəndaşlarına xidmət göstərəcək

**2022-ci ilin 30 avqust - 4 sentyabr tarixlərində Türkiyənin Samsun şəhərində Aerokosmik və texnologiya festivalı (TEKNOFEST) günləri çərçivəsində Türkiyədə yaşayan Azərbaycanlılara dövlət xidmətlərinin çatdırılması məqsədilə Səyyar ASAN xidmət avtobusu vasitəsilə xidmət göstəriləcək.**

Bu barədə "Şərq"ə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Ölkə xaricində ilk dəfə gerçəkləşəcək Səyyar ASAN xidmət Dövlət Agentliyin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur.

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobus vasitəsi ilə vətəndaşlara göstəriləcək xidmətlər:

* Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi;
* Ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi;
* Sürücülük vəsiqələrinin dəyişdirilməsi;
* Məhkumluq barədə arayışların verilməsi.
* Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı xidməti

(səh.2)



## Prezident İlham Əliyev Paşinyanla Brüsseldə görüşəcək

**Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında görüş avqustun 31-də baş tutacaq.**

"Sputnik Armenia"nın verdiyi xəbərə görə, bu barədə məlumatı Ermənistan hökumətinin mətbuat xidməti təsdiqləyib. Bildirilib ki, görüş Brüsseldə baş tutacaq.

## Vladimir Putin Mehriban Əliyevanı təbrik edib



**Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təbrik məktubu göndərib.**

*Məktubda deyilir:*

"Hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz dövlətlərimiz arasında bu il müttəfiqliyin yeni səviyyəsinə çıxan münasibətlərin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Əminəm ki, bir çox istiqamətlər üzrə ikitərəfli konstruktiv əlaqələr, xalqlarımızın dostluğu bundan sonra da möhkəmlənəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və uğurlar arzulayıram. Səmimi salamlarımı İlham Heydər oğluna və bütün ailənizə çatdırmağınızı xahiş edirəm".

# ABŞ Azərbaycan-Ermənistan danışıqlarını pozur

### Azərbaycan XİN: "Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə təyinata dair bəyanatı təəccüb doğurur"




**ABŞ dövlət katibi Entoni Blinken Filip Rikeri Dövlət Departamentinin Qafqaz üzrə yeni baş məsləhətçisi təyin edib.**

Filip Riker bu vəzifədə Endryu Şoferi əvəzləyib. O, Azərbaycan və Ermənistan arasında birbaşa dialoqa kömək edəcək. Həmçinin, Cenevrə beynəlxalq müzakirələrində Gürcüstandakı münaqişə üzrə ABŞ nümayəndə heyətindən danışıqları aparan aparıcı şəxs olacaq. Riker Avropada və beynəlxalq təşkilatlarda geniş iş təcrübəsinə malikdir. Daha əvvəl ABŞ-ın Böyük Britaniyadakı səfirliyində müvəqqəti işlər vəkili kimi fəaliyyət göstərib.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva yerli KİV-in ABŞ Dövlət katibi Antoni Blinkenin 24 avqust tarixli mətbuat bəyanatınının şərh edilməsinə dair sorğusunu cavablandırıb.

(səh.2)

# Laçın və ətraf bölgələr tam nəzarətimizə keçib

### Bundan sonra bu ərazilərdə Azərbaycan qanunları işləyəcək



**Laçın dəhlizinə alternativ avtomobil yolu ilə hərəkət yaxın bir həftədə mümkün olacaq. Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, cəmi 10 ay ərzində Laçın şəhərinə daxil olmadan 22 kilometri Azərbaycan ərazisindən, 10 kilometri Ermənistan ərazisindən keçməklə alternativ yol çəkilib.**

Agentliyin məlumatına görə, avqustun 15-də alternativ yol Azərbaycan ərazisindən keçmək şərtilə tam hazırdır. Lakin Ermənistan tərəfi üzərinə düşən 10 kilometri hələ də başa çatdırmayıb.

(səh.2)



## Putin fərman imzaladı

### Rusiya Silahlı Qüvvələrinin sayı artırılır

**Rusiya Silahlı Qüvvələrinin sayı 2,39 milyon nəfərədək artırılacaq.**

Bu barədə ölkə prezidenti Vladimir Putin fərman imzalayıb.

Qeyd olunur ki, bu göstəricinin 1,15 milyon nəfəri hərbi qulluqçular, digərləri mülki şəxslər olacaq.

Fərman yanvarın 1-dən qüvvəyə minəcək.

*Qeyd edək ki, hazırda Rusiya Silahlı Qüvvələrinin tərkibi 1,9 milyon nəfərdən çoxdur və bunun 1,013 nəfərini hərbi qulluqçular təşkil edir.*

## Şirvan sakini daşla qətlə yetirilib



**Şirvanda qətl hadisəsi baş verib.**

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, hadisə Şirvan şəhəri Hacıqəhrəmanlı qəsəbəsində baş verib. Daşqın adlı şəxs münaqişə zəminində qəsəbə sakini, 1969-cu il təvəllüdlü Kamran Qocayevi daşla vuraraq qətlə yetirib. O, hadisə yerindən qaçıb. Həmin şəxsin saxlanması istiqamətində əməliyyat tədbirləri həyata keçirilir. Faktla bağlı Şirvan prokurorluğunda araşdırma aparılır.

## Zaporojye AES tarixdə ilk dəfə elektrik şəbəkəsindən ayrılıb



**Ukraynanın Dövlət Nüvə Enerjisi Şirkəti Enerqoatom Rusiyanın ələ keçirdiyi bölgədə yerləşən Zaporojye Atom Elektrik Stansiyasının tarixdə ilk dəfə olaraq milli elektrik şəbəkəsindən ayrıldığını açıqlayıb.**

"Report" Ukrayna mətbuatına istinadən xəbər verir ki, Zaporojye Atom Elektrik Stansiyasının son iki işləyən reaktorunun yaxınlığında baş verən yanğınlar nəticəsində AES-i şəbəkəyə birləşdirən elektrik xətlərinin zədələndiyi bildirilib. Obyekt ukraynalı mühəndislər tərəfindən idarə olunarkən, elektrik stansiyası yaxınlığında Rusiya və Ukrayna qüvvələri arasında qarşıdurma davam edir. Həm Ukrayna, həm də Rusiya bir-birini zavodu bombalamaqda ittiham edir.



## İcra başçılarının ən azı 30 faizi qadın olmalıdır

**Cümşüd Nuriyev: "Agentlik, nazirlik, komitələrdə və yerlərdə qadın məmurların sayını çoxaltmalıyıq"**

(səh.3)



## Vaxta və yanacağa qənaət

### Ödənişli yollar daha rahat və sürətli olacaq

(səh.3)

# Laçın və ətraf bölgələr tam nəzarətimizə keçib

## Bundan sonra bu ərazilərdə Azərbaycan qanunları işləyəcək



**Laçın dəhlizinə alternativ avtomobil yolu ilə hərəkət yaxın bir həftədə mümkün olacaq. Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, cəmi 10 ay ərzində Laçın şəhərinə daxil olmadan 22 kilometri Azərbaycan ərazisindən, 10 kilometri Ermənistan ərazisindən keçməklə alternativ yol çəkilib.**

Agentliyin məlumatına görə, avqustun 15-də alternativ yol Azərbaycan ərazisindən keçmək şərtilə tam hazırdır. Lakin Ermənistan tərəfi üzərinə düşən 10 kilometri hələ də başa çatdırmayıb. Qarabağda yaşayan erməni icmasının xahişi ilə Azərbaycan tərəfi yeni yola birləşən 4,8 kilometr uzunluğunda birləşdirici yolun tikintisini də öz üzərinə götürüb və həyata keçirib. Azərbaycan tərəfi Laçın şəhərinə daxil olmayan yeni avtomobil yolunun tikintisinə 2021-ci ilin iyul ayında başlamışdı. Rəsmi məlumata görə, yolun ümumi uzunluğu 32 kilometr təşkil edir. Xatırladaq ki, Qarabağdakı ermənilər indiyə kimi Ermənistanla Laçın şəhərindən keçən "dəhliz" vasitəsilə əlaqə saxlayırdılar. Laçın "dəhlizi" Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olduğundan şəhər mərkəzində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşan ermənilər bölgəni tərk etməmişdi. Lakin qısa müddət ərzində ermənilər sözügedən əraziləri boşaldıblar.

***"Qarabağda yaşayan ermənilərin bütün hüquqları dövlətimiz tərəfindən qorunur və qorunacaq"***

Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə açıqlamasında Zabux və Sus kəndlərinin ermənilərdən təmizlənməsinin, yeni yolun istifadəyə verilməsinin əvvəlcədən gözlənilən olduğunu deyib. Analitik vurğulayıb ki, alternativ yol indiki məqamda Qarabağda yaşayan ermənilərin Ermənistanla əlaqəsini təmin etmək məqsədi daşıyır: "Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşı sayılır. Onların bütün hüquqları dövlətimiz tərəfindən qorunur və qorunacaq. Bəyan edilən budur. Lakin Suriya və Livandan gətirilmiş ermənilərin Laçından çıxarılması bir mesaj idi ki, Azərbaycan vətəndaşı sayılmayan ermənilərin hamısı ölkəni mütləq şəkildə tərk edəcəklər. Bu, Azərbaycan dövlətinin qəti iradəsinin ifadəsidir. Digər məqam odur ki, torpaqlarımızda separatçılar, qanunsuz silahlanmış ermənilər var. Azərbaycan tərəfi Laçın "dəhlizi"nə alternativ yolu istifadəyə verməklə tədricən separatçıların ərazimizdən təmizlənməsini həyata keçirəcək. Həmçinin, rəsmi Bakı Ermənistanın bölgədəki separatçılarla davranışını təhlükəsizlik aspektləri prizmasından nəzərdə saxlayıb, təhlil edə biləcək. Bu addım Yuxarı Qarabağın vacib nöqtələrinin Azərbaycanın əlində və nəzarətində qalması üçün çox vacibdir. Yeni yolun rusların nəzarətində olması Azərbaycan üçün problem yaratmır. Rusiya ilə imzalanmış müqavilədən sonra bəzi bölgələrdə ərazilərin Azərbaycanın nəzarətinə keçməsi müşahidə olunmaqdadır. Düzdür, sulhməramlıların müəyyən hərəkətləri Azərbaycanda narazılıq doğurur. Ancaq bunlar yekun nəticələrə təsir göstərəcək məqamlar deyil".

**İsmayıl Qocayev**




**2022-ci ilin 30 avqust - 4 sentyabr tarixlərində Türkiyənin Samsun şəhərində Aerokosmik və texnologiya festivalı (TEKNOFEST) günləri çərçivəsində Türkiyədə yaşayan Azərbaycanlılara dövlət xidmətlərinin çatdırılması məqsədilə Səyyar ASAN xidmət avtobusu vasitəsilə xidmət göstəriləcək.**

# "Səyyar ASAN" ilk dəfə...

## Türkiyədə Azərbaycan vətəndaşlarına xidmət göstərəcək

Bu barədə "Şərq"ə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat verilib.

Ölkə xaricində ilk dəfə gerçəkləşəcək Səyyar ASAN xidmət Dövlət Agentliyin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur.

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobus vasitəsi ilə vətəndaşlara göstəriləcək xidmətlər:

* Şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi;
* Ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi;
* Sürücülük vəsiqələrinin dəyişdirilməsi;
* Məhkumluq barədə arayışların verilməsi.
* Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı xidməti

Tərcümə xidmətləri :
* Yazılı tərcümə;
* Onlayn tərcümə;
* Apostil sənədlərinin qəbulu;
* Tərcümənin daxili möhürlə təsdiqi;
* Eyniləşdirmə;
* Redaktə;
* Rirayting;
* Kopiraytinq.

Dövlət Agentliyindən bildirilib ki, 30 avqust - 4 sentyabr tarixlərində saat 10:00 - 18:00 aralığında təşkil ediləcək xidmətdən yararlanmaq üçün vətəndaşlarımız mütləq "Teknofest" ərazisinə daxil olmaq hüququ verən qeydiyyatdan keçməlidirlər.

*Qeydiyyat üçün link: https://www.t3kys.com/tr/teknofest/visitor/apply/*

*Qeyd olunub ki, eyni zamanda Türkiyədə yaşayan Azərbaycan vətəndaşları https://seyyarasan.e-gov.az/ linkinə daxil olaraq özünə aid məlumatları (şəxsiyyət vəsiqəsi məlumatları, mobil nömrə və elektron poçt ünvanı) və almaq istədikləri xidməti qeyd edərək müraciətlərini öncədən gerçəkləşdirə bilərlər.*

**Aygün**

# Ermənistan Rusiyanın notasına cavabı gizlədir

## Elxan Şahinoğlu: "Kreml Ermənistandakı emisarları vasitəsilə notaya cavabı yerli müxalif mediaya ötürəcək"



**Ermənistan Rusiya Xarici İşlər Nazirliyinin notasına cavab verib. Bu barədə Ermənistan XİN məlumat yayıb. Lakin verilən cavab mətni mediada yayımlanmayıb. Ermənistan XİN-in verdiyi məlumata görə, notanın məzmunu daxili diplomatik yazışmaların tərkib hissəsidir. Ona görə də XİN mətnin dərcini düzgün hesab etmir.**

Rəsmi İrəvanın yayımlamaq istəmədiyi cavab mətnini "Şərq"ə şərh edən politoloq Elxan Şahinoğlu bildirib ki, Ermənistan XİN mətnin diplomatik yazışmaların bir hissəsi olduğuna görə yayımlanmadığını desə də, bu, Baş nazir Nikol Paşinyanın təlimat ilə baş tutub: "Çünki Rusiyadan qorxurlar. Buna səbəb də Rusiya səfirliyinin ciddi ittiham irəli sürməsidir. Həmçinin Rusiya səfirliyinin XİN-ə göndərdiyi notası tam şəkildə bəyan olunmuşdu. Qarşı tərəf isə notaya cavabı bəyan etmək istəmir. Görünür, rəsmi Moskvadan çəkindikləri üçün bu addımı atırlar. Şübhəsiz, Rusiya səfirliyinin notası Ermənistanın Baş naziri Nikol Paşinyanı qəzəbləndirib. Buna baxmayaraq, o, Moskva ilə münasibətləri daha da gərginləşdirməmək üçün notaya cavabın yayımlanmasını lazım bilməyib. Lakin hesab edirəm ki, yaxın günlərdə sözügedən mətn Rusiya səfirliyi tərəfindən yayımlanacaq. Kreml Ermənistandakı emisarları vasitəsilə notaya cavabı yerli müxalif mediaya ötürəcək. Onlar bu yolla Paşinyanın mövqeyini zəiflətməyi hədəfləyirlər".

Xatırladaq ki, avqustun 14-də İrəvanda "Sürməli" ticarət mərkəzində baş verən partlayışda Rusiya ittiham olunmuşdu. Bu səbəbdən rəsmi Moskva İrəvana nota vermişdi.

**Çimnaz Şahlar**

# "Qazaxıstanlı jurnalistlərlə kommunikasiya problemimiz yoxdur"

## Azər Həsrət: "Bütün sahələrdə əməkdaşlıq edən iki qardaş dövlət arasında media sahəsində də sıx əlaqələrin olması labüddür"

**Avqustun 24-də Prezident İlham Əliyevlə Qazaxıstan rəhbəri Qasım-Jomart Tokayevin iştirakı ilə iki ölkə arasında 20-yə yaxın mühüm sənədlər imzalanıb.**



İmza atılan önəmli sənədlərdən biri də Medianın İnkişafı Agentliyi ilə Qazaxıstan Respublikası İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu olub. Qeyd edək ki, Azərbaycanla Orta Asiyanın türk dövlətləri arasında media sahəsində əməkdaşlıq mütəmadi gündəmə gətirilir. Bu sahədə ciddi problemlərin olduğu və daha sıx əlaqələrə ehtiyac duyulduğu bildirilir. Ekspertlərə görə, müvafiq qurumlar arasında imzalanmış memorandumlar çərçivəsində türk ölkələrinin media və kommunikasiya sahəsindəki əməkdaşlığını inkişaf etdirmək şansları yaranacaq.

**Media eksperti Azər Həsrət "Şərq"ə açıqlamasında deyib ki, Medianın İnkişafı Agentliyi ilə Qazaxıstanın müvafiq strukturu arasında anlaşma təqdirəlayiqdir.** Onun sözlərinə görə, Qazaxıstan ərazisinə, iqtisadi imkanlarına görə Orta Asiyanın ən böyük dövlətidir: "Qazaxıstan dil və etnik mənsubiyyət baxımından Azərbaycana qardaş ölkədir. Fikir verdinizsə, dövlət başçısı İlham Əliyev Qazaxıstan prezidenti ilə mətbuat önündə çıxış edərkən xüsusi vurğuladı ki, Qazaxıstan müstəqillik dönəmində, xüsusən beynəlxalq platformalarda Azərbaycana lazımi dəstəyi verib. Azərbaycan bundan çox məmnundur. Hər iki ölkə birbirini kifayət qədər ciddi dövlət kimi görürlər. Şübhəsiz, bütün sahələrdə əməkdaşlıq edən iki qardaş dövlət arasında media sahəsində də sıx əlaqələrin olması labüddür. Məsələnin sevindirici tərəfi odur ki, Azərbaycan-Qazaxıstan jurnalistləri arasında kommunikasiya problemi yoxdur. İstər indiki intensiv münasibətlər dönəmində, istərsə də öncəki dövrlərdə qazax jurnalistlərlə çox yaxından işləmişik. Şəxsən özüm qazaxıstanlı həmkarlarla daim əlaqədə olmuşam. Qazaxıstan mediasında yazılarım çap olunub, biz onların məqalələrini çap etmişik və s. Eyni zamanda ekspert rəyləri də qarşılıqlı dərc edilib".

**A.Həsrət vurğulayıb ki, təxminən 20 il bundan qabaq tanış olduğu və illərdir dostluq münasibətini qoruyub-saxladığı şəxs - Askar Umarov hazırda Qazaxıstanın informasiya naziridir:** "Onun Azərbaycan və digər türk dövlətlərinə münasibəti birmənalıdır. Öz dövlətinə bağlı adamdır. O baxımdan Azərbaycanın Media Agentliyi ilə Qazaxıstanın müvafiq qurumu arasında memorandumun imzalanması çox yerinə düşdü. Media sahəsində əməkdaşlığı mümkün qədər irəli daşımalıyıq. Bir məqamı qeyd edim ki, hazırda Türkiyədə səfir olan Rəşad Məmmədov Qazaxıstanda fəaliyyət göstərərkən Azərbaycan-Qazaxıstan media münasibətləri çox inkişaf etmişdi. İndi də həmin münasibətlər davam etməkdədir. Biz də bu istiqamətdə öz töhfəmizi verəcəyik".

**İsmayıl Qocayev**

# ABŞ Azərbaycan-Ermənistan danışıqlarını pozur

## Azərbaycan XİN: "Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə təyinata dair bəyanatı təəccüb doğurur"



**ABŞ dövlət katibi Entoni Blinken Filip Rikeri Dövlət Departamentinin Qafqaz üzrə yeni baş məsləhətçisi təyin edib. Filip Riker bu vəzifədə Endryu Şoferi əvəzləyib. O, Azərbaycan və Ermənistan arasında birbaşa dialoqa kömək edəcək. Həmçinin, Cenevrə beynəlxalq müzakirələrində Gürcüstandakı münaqişə üzrə ABŞ nümayəndə heyətindən danışıqları aparan aparıcı şəxs olacaq. Riker Avropada və beynəlxalq təşkilatlarda geniş iş təcrübəsinə malikdir. Daha əvvəl ABŞ-ın Böyük Britaniyadakı səfirliyində müvəqqəti işlər vəkili kimi fəaliyyət göstərib.**

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva yerli KİV-in ABŞ Dövlət katibi Antoni Blinkenin 24 avqust tarixli mətbuat bəyanatınının şərh edilməsinə dair sorğusunu cavablandırıb.

Bununla bağlı XİN-dən daxil olan məlumatda deyilir:

"Amerika Birləşmiş Ştatlarının dövlət katibi Antoni Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə Filip Rikerin təyin olunmasına dair mətbuat bəyanatında bölgədəki post-münaqişə reallığından uzaq yanaşmanın sərgilənməsi təəccüb doğurur.

Minsk Qrupu ilə bağlı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəfələrlə və aydın şəkildə ifadə olunub.

Faktiki olaraq fəaliyyət göstərməyən Minsk Qrupunun "reanimasiya" edilməsi cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər.

Qarabağ münaqişəsi həll olunub və Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq ictimaiyyət, o cümlədən tərəfdaşlarımız anlamalıdır ki, Azərbaycan Ermənistan münasibətlərinin normallaşması üzrə danışıqların Qarabağ məsələsi ilə əlaqələndirilməsi heç də normallaşmaya xidmət etmir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, rəsmi Bakı İkinci Qarabağ müharibəsindən sonra haqlı olaraq Minsk qrupunun "xidmətlərindən" imtina edib.** Ekspert vurğulayıb ki, Rusiya da ABŞ-la birgə həmsədrlik institutundan vaz keçib. Hətta ermənilərə simpatiyası olan Paris də mövcud şərtlər altında Minsk qrupunun əhəmiyyətsiz olduğunu anlayıb: "Bircə üçüncü həmsədr Vaşinqton tutduğunu buraxmır. Rikerin səlahiyyətinin birinci hissəsi normaldır. Azərbaycanla Ermənistan arasında istənilən vasitəçiliyin əleyhinə deyilik, ancaq "Minsk qrupu həmsədri" ifadəsi işləri korlayır. Bu, bir tək bizim istəyimizlə bağlı deyil, Rusiya ABŞ-la bir masada oturmaq istəmir. Bu yaxınlarda görüşdüyüm amerikalı diplomata "Vaşinqton nədən Minsk qrupundan imtina etmir" sualını verdim. Ona izah etməyə çalışdım ki, bu israrçılıq Azərbaycan-ABŞ münasibətlərinə lazımsız gərginlik yarada bilər. Həm də Rusiyanın bölgədə möhkəmlənməsinə şərait yaradar ki, bu, Vaşinqtonun maraqlarına uyğun olmamalıdır. Amerikalı diplomatın cavabı belə oldu ki, Kreml "Minsk qrupuna yox" dediyinə görə, Vaşinqton bunun tərsini "Minsk qrupu davam etməlidir" söyləmək məcburiyyətində qalıb. Azərbaycan ABŞ-ın Cənubi Qafqazda fəallığının əleyhinə deyil. Bunun üçün Minsk qrupu xaricində kifayət qədər alət var. Onlardan istifadə etmək lazımdır".

***"Azərbaycanla Ermənistan arasında istənilən vasitəçiliyin əleyhinə deyilik, ancaq "Minsk qrupu həmsədri" ifadəsi işləri korlayır"***

**İsmayıl**

# Ermənistanın hər dəfə sülhə yubanması bizim üçün fürsətdir

## Revanşistlər sərhəd boyunca təxribatlar törətdikcə əzəli Azərbaycan torpaqları olan ərazilərimizi öz nəzarətimizə qaytarmalıyıq

**Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyənləşdirilməsi üzrə delimitasiya komissiyasının nümayəndələrinin görüşəcəyi tarix açıqlanıb. Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın ofisindən bildirilib ki, komissiya nümayəndələri avqustun 30-da görüşəcəklər. Qeyd edək ki, daha əvvəl görüşün Moskvada keçiriləcəyi barədə məlumat verilmişdi.**



Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müşaviri, politoloq Azər Qasımov deyib ki, Rusiya-Ukrayna müharibəsi, regionda və ümumiyyətlə postsovet məkanında cərəyan edən hadisələr nəyisə gözləmək məcburiyyəti yaradır. Analitik vurğulayıb ki, Azərbaycan-Ermənistan münasibətlərində bizim üçün ciddi dəyişikliklər gözlənilmir. Ancaq İrəvanın itirmək qorxusu Ermənistanı gözləmə mövqeyində saxlayır: "Rəsmi Bakının özü üçün yaratdığı reallıqlar Azərbaycanı böyük ölçüdə qane edir. Həmçinin, sonrakı proseslərdə problemləri öz xeyrinə həll edəcəyinə əminlik yaradır. Ermənistanda isə arxayınlıq hissi yoxdur. Ona görə də manevrlər etmək, prosesləri ləngitmək niyyəti güdür. Ancaq biz də yubanmanı fürsətə çevirməliyik. Ermənilər sərhəd boyunca təxribatlar törətdikcə əzəli Azərbaycan torpaqları olan ərazilərimizi öz nəzarətimizə qaytarmalıyıq. Tərəflər arasında görüşlər isə mütəmadi davam etməlidir. Belə təmaslardan konkret nəticələr gözlənilməsə də, müəyyən irəliləyişlərin olacağı istisna edilmir. İrəvan öz maraqları naminə pərdəarxası addımlar atsa da, gec-tez regiona sülh və stabillik gəlməlidir. Dünyada mövcud olan qarşıdurmaların genişmiqyaslı müharibələrə çevrilməsi ehtimalı daim göz önündə olmalıdır. Ən azından regionumuzdakı stabillik tərəfləri mümkün müharibənin dağıdıcı təsirindən qoruya bilər".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;**



# İcra başçılarının ən azı 30 faizi qadın olmalıdır

## Cümşüd Nuriyev: "Agentlik, nazirlik, komitələrdə və yerlərdə qadın məmurların sayını çoxaltmalıyıq"

**Gender bərabərliyi Azərbaycan dövlətinin siyasətində həmişə önəmli yer tutub. Artıq gender bərabərliyi Azərbaycan cəmiyyətində mühüm amil kimi qəbul edilir. Ümumən, hesab edilir ki, cəmiyyətin hərtərəfli inkişafı üçün qadınların fəallığı vacibdir. Əhalinin yarısını təşkil edən qadınlar inkişaf etməsə, ölkənin demoqrafik inkişafından da danışmaq olmaz. O baxımdan qadınların özünə inamı, peşəsini düzgün seçməsi olduqca əhəmiyyət kəsb edir. Səhiyyə, təhsil, mədəniyyət və s. sahələrdə qadınların sayı kişilərə nisbətən daha çoxdur.**

Amma yuxarı vəzifələrdə qadınların sayının az olduğu deyilir. Əslində, Azərbaycanda qadınların işlə təminatında heç bir problem yoxdur. Müxtəlif bilikləri, bacarıqları, peşə vərdişləri olan qadınlar iş tapmaqda çətinlik çəkmirlər. Başlıca problem qadınların rəhbər vəzifələr tutması və biznes sektorunda daha çox uğurlar əldə etməsi ilə bağlıdır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatına görə, BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən layihələri çərçivəsində 6200 nəfər qadın müxtəlif mövzularda təlim və tədbirlərə cəlb olunub. 400 qadın biznes fəaliyyətinə başlayıb, 25 qadın əlavə iş yeri ilə təmin olunub. Komitənin Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin əməkdaşlığı ilə birgə yaratdığı Göyçay rayonu Qadın Resurs Mərkəzi "Göyçay rayonunda qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək" layihəsi çərçivəsində icra olunub. 2020-2021-ci illəri əhatə edən layihə çərçivəsində Göyçay rayonundan həssas qrupdan olan 28 nəfər qadına biznes fəaliyyətinə başlaması üçün qeyri pul şəklində dəstək göstərilib. Tovuz rayonu Qadın Resurs Mərkəzinin "Qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək" layihəsi çərçivəsində 60 qadına biznes fəaliyyətinə başlaması və mövcud bizneslərin gücləndirilməsi üçün qeyri pul şəklində dəstək göstərilib. Onlar biznes planına uyğun olaraq avadanlıqlarla təmin olunublar. Komitədən verilən məlumatda bildirilib ki, sahibkarlıq fəaliyyətinə başlayan qadınların 95 faizi aktiv fəaliyyət göstərərək bizneslərini davam etdiriblər. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə muzdlu işçilərin 39.5 faizini qadınlar təşkil edib. Komitənin məlumatına görə, ölkədə qadınların daha çox işlədiyi sahələr təhsil, səhiyyə, əyləncə və turizmdir. Yüksək vəzifələrə gəldikdə isə, son 30 ildə Azərbaycanın bir qadın naziri olub. Natəvan Qədimova 2020-ci ildə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri təyin olunub. DSK-nın son açıqladığı məlumata görə, hazırda ölkədə nazir müavini olan qadınların sayı 8, qadın dövlət komitəsi sədrlərinin sayı 2, qadın dövlət komitəsi sədr müavinlərinin sayı 3, yerli icra başçılarının müavinlərinin sayı 72, ombudsmanların (Naxçıvan MR daxil olmaqla) sayı 2-dir. Öncəki illərlə müqayisədə də qadın hakimlərin sayında artım olub. Müxtəlif illərə nəzər saldıqda, müsbət tendensiyalardan biri olaraq parlamentdə qadın təmsilçilərin sayının artması da görünür. Məsələ bir müddət öncə millət vəkili Qüdrət Həsənquliyev tərəfindən də gündəmə gətirilmişdi. Deputat vurğulamışdı ki, Azərbaycanda qadınların pensiya yaşı aşağı salınmalıdır ki, gənc xanımlar üçün də iş imkanları genişlənsin: "Bizdə cəmi bir xanım icra başçısı var. Biz şərqdə ilk dəfə qadınlara səs vermək hüququ verən xalqıq. Məncə, kvorum olmalıdır. Qadınlar cəmiyyətin bütün institutlarında işləməlidir. Çox yaxşı haldır ki, Azərbaycanda Birinci vitse-prezident, eləcə də Milli Məclisin sədri xanımdır. Hesab edirəm ki, biz bu sahəyə xüsusi diqqət ayırmalı, xanımlarımız üçün iş imkanlarını genişləndirməliyik". Deputat Məlahət İbrahimqızı isə hesab edir ki, ölkədə qadınlarla bağlı kvota sistemi olmasa da, bütün iş sahələrində qadınlar təmsil olunur. Onun sözlərinə görə, icra hakimiyyəti orqanlarında birinci şəxs olmadığı halda, ikinci şəxs qadınlardır. Humanitar sahələrdə - mədəniyyət, səhiyyə, təhsil kimi sahələrdə qadınların təmsilçiliyi 70-80 faizdir. Bu gün ölkədə yaradılan yeni iş yerlərində, Qarabağda aparılan quruculuq işlərində, regionların sosial-iqtisadi inkişaf proqramlarında qadınlar işlə təmin olunur".

***"Səhiyyə naziri, təhsil naziri qadın olsaydı, daha yaxşı olardı. Niyə xarici işlər nazirimiz qadın olmasın? Azərbaycanın çox peşəkar, diplomatiya sahəsini yaxşı bilən xanımları var"***

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev də "Şərq"ə açıqlamasında yüksək vəzifə məsələsində gender bərabərliyinin pozulduğunu deyib. Professorun sözlərinə görə, Azərbaycanda cəmi 4-5 vəzifəli xanım var. Onlar Birinci vitse-prezident, Milli Məclisin sədri, Ombudsman, Komitə sədri, bir də Dövlət İmtahan Mərkəzinin rəhbəridir:** "İcra başçıları arasında bir xanım var idi, artıq o da vəzifədə deyil. Bildiyimə görə, hazırda icra başçısı vəzifəsini icra edən qadın yoxdur. Təhsil və səhiyyədə qadınların çox olması, əsasən məktəb direktorlarının, müəllimlərin əksəriyyətinin xanımlardan ibarət olması faktı reallıqdır. Əslində gender bərabərliyi burada da pozulur. Haşiyə çıxaraq qeyd edim ki, vaxtı ilə məktəb rəhbərlikləri arasında kişilərin sayı daha çox idi. Amma indi bunun əksi müşahidə olunur. Sözün açığı, bir müəllim olaraq bunu doğru saymıram və müəyyən fəsadlarının olacağını düşünürəm. Əgər bu qorxulu tendensiya davam edərsə, orta məktəbləri bitirən gənc oğlanlarda qadın xüsusiyyətləri formalaşacaq. "Azərbaycanda niyə yüksək vəzifədə qadınlar yoxdur" sualı ətrafında müzakirələr aparmaq olar. Məsələn, səhiyyə naziri, təhsil naziri qadın olsaydı, daha yaxşı olardı. Niyə xarici işlər nazirimiz qadın olmasın? Azərbaycanın çox peşəkar, diplomatiya sahəsini yaxşı bilən xanımları var. Ən azından nazirin birinci müavini qadın ola bilər. Hüquq-mühafizə orqanlarında da kişilər üstünlük təşkil edir. İcra hakimiyyətinin başçılarının azı 20-30 faizi qadınlardan ibarət olmalıdır. Dövlət agentliklərində də qadın "qıtlığıdır". Bir neçə nazir müavinləri arasında xanımlar var, amma ümumi say çox aşağıdır".

**C.Nuriyevin fikrincə, problemi yaradan müəyyən səbəblər var:** "Azərbaycanın müsəlman ölkəsi olması, şərqli düşüncəmiz, bəzi hallarda qadınların hüquqlarının pozulması bu kimi problemlərə yol aça bilər. Əlbəttə, mövcud görüntünü dəyişmək lazımdır və bu, mümkündür. Agentlik, nazirlik, komitələrdə və yerlərdə qadın məmurların sayını çoxaltmalıyıq. Xanımlarımıza yüksək vəzifələri həvalə etməliyik. Necə olur ki, ailəmizi, uşaqlarımızı qadınlarımıza könül rahatlığı ilə etibar edirik, ancaq dövlət vəzifələrində təmsil olunmalarına qısqanclıqla yanaşırıq?! Vəzifələrdə irəli çəkilənlərin arasında qadınlar daha çox olmalıdır. Azərbaycan dünyəvi, demokratik dövlətdir. Multikulturalizm, tolerantlıqla bağlı kifayət qədər böyük imicimiz var. Gender bərabərliyini pozaraq bu imici zədələmək olmaz".

*İsmayıl Qocayev*

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Tokayev Azərbaycana xüsusi missiya ilə gəlmişdi

**İstər tarixi kontekstdə, istərsə də son 30 illik müstəqillik dövründə Qazaxıstan və Azərbaycan etibarlı tərəfdaş, yaxın dost və qardaş ölkələr olublar. Siyasi keçmişimizin çətin dövrlərində, tarixə qovuşmuş münaqişə dövründə Qazaxıstan mənəvi-siyasi baxımdan daim Azərbaycanın yanında yer alıb.**



***Bu missiya iki ölkə arasında strateji tərəfdaşlığı, müttəfiqlik münasibətlərini yeni keyfiyyət mərhələsinə qaldırmağa xidmət etməlidir***

İşğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması prosesində iştirak etmək istəyən şirkətlər arasında Qazaxıstan təmsilçiləri birinci yerdədir. Qazaxıstan Prezidenti Qasım Jomart Tokayevin Azərbaycan səfərinin rəsmi tərəfi ilə bərabər mənəvi-siyasi tərəfi də yaddaqalan oldu. Prezident İlham Əliyev Qazaxıstan dövlətinin ən ali mükafatı ilə təltif edildi. Qazaxıstan tərəfindən Füzuli rayonunda tikiləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi təqdim olundu. Eyni zamanda Şuşa və Türküstan şəhərlərinin qardaşlaşması ayrıca bir hadisədir. Çünki Türküstan Əl-Fərabi ət Türkün, Əhməd Yəsəvinin, Şuşa isə Əhməd bəy Ağaoğlunun, Üzeyir bəy Hacıbəylinin vətənidir. Göründüyü kimi bütün bunlar xüsusi diqqət və uzaqgörən hədəflərə hesablanaraq atılan, tarixi ortaq köklərimizə hesablanan qərarlardır. 22 iyun 2022-ci il tarixində Prezident İlham Əliyev Özbəkistanda dövlət səfərində olarkən maraqlı və önəmli bir fikir söyləmişdi: "Qardaşım Şavkat Miromonoviçin bütün dediklərini mən anladım, tərcüməçiyə ehtiyac qalmadı". Budəfəki görüşdə də eyni mənzərənin şahidi olduq. Prezidentlər türk dilləri ailəsinə aid Azərbaycan və qazax dillərində danışaraq dünyaya tarixi, mədəni, mənəvi-siyasi və geosiyasi məzmuna malik mesaj verdilər. Mesajın məzmunu ondan ibarətdir ki, türk dövlətləri bütün məsələlərdə anlaşa, birlikdə hərəkət edə və hədəflərinə nail ola bilirlər. Müasir beynəlxalq münasibətlər sisteminin reallıqlarına gəldikdə isə Azərbaycan və Qazaxıstan arasında imzalanan sənədlər iki qardaş ölkənin gələcək təhlükəsizlik və əməkdaşlıq perspektivləri baxımından mühüm əhəmiyyət kəsb etməkdədir. Daha sıx əlaqələr iki ölkənin münasibətlərini yeni mərhələyə daşıyacaq.

**Millət vəkili, siyasi elmlər doktoru, professor Elşad Mirbəşiroğlu "Şərq"ə açıqlamasında bildirib ki, Qazaxıstan prezidentinin Azərbaycana ilk rəsmi səfəri iki ölkənin münasibətlərinin yeni mərhələyə qalxmasını şərtləndirəcək. Deputat xatırladıb ki, 2004-cü ildən Azərbaycan-Qazaxıstan əlaqələri strateji tərəfdaşlıq xarakteri daşıyır. Onun sözlərinə görə, Azərbaycan və Qazaxıstan həm regional səviyyədə, həm də beynəlxalq təşkilatlar çərçivəsində hər zaman fəaliyyətlərini uğurla kordinasiya edərək bir-birinə dəstək olublar:** "Qazaxıstan keçmiş münaqişə vəziyyətində Azərbaycanın ərazi bütövlüyünü bütün vacib platformalarda dəstəkləyib. Biz də Qazaxıstanın mövqelərinə daim dəstək ifadə etmişik. Azərbaycan indiki mərhələdə tamamilə yeni, ərazi bütövlüyünü təmin etmiş bir dövlət obrazında beynəlxalq əməkdaşlıq və münasibətlər sistemində iştirak etməkdədir. Qazaxıstan Prezidenti Tokayevin də qeyd etdiyi kimi o, Azərbaycana xüsusi missiya ilə səfər etmişdi. Bu missiya iki ölkə arasında strateji tərəfdaşlığı, müttəfiqlik münasibətlərini yeni keyfiyyət mərhələsinə qaldırmağa xidmət etməlidir. Hər iki tərəfin mövqeyi ondan ibarətdir ki, Qazaxıstanla Azərbaycan arasında əməkdaşlıq daha da genişləndirilə bilər. İndiki əməkdaşlıq səviyyəsi tərəflərin potensialına tam cavab vermir. İmzalanan 20-yə qədər sənəd tərəflərin əməkdaşlığı inkişaf etdirməkdə real iradəyə malik olduqlarını göstərir. Başlıca sənəd Azərbaycanla Qazaxıstan arasında srateji tərəfdaşlığın dərinləşdirilməsi, müttəfiqlik münasibətlərinin genişləndirilməsi ilə bağlı deklorasiya oldu. Bu sənəd bütövlükdə Azərbaycan-Qazaxıstan münasibətlərini bundan sonrakı mərhələdə daha da genişləndirəcək. Məhz bu platforma üzərindən digər istiqamətlərdə də əməkdaşlığı inkişaf etdirmək üçün real imkanlar yaradılacaq".

**Parlament üzvünün sözlərinə görə, digər mühüm sənədlərdən biri də hökumətlərarası sazişin imzalanması idi:** "Bu saziş ticari-iqtisadi əlaqələrin genişləndirilməsi üçün əlavə stimul rolunda çıxış edəcək. İki ölkə arasında əməkdaşlığın inkişafına dair 2022-2026-cı illəri əhatə edəcək kompleks proqram da təsdiqlənib. Ümumən, 20 sənəd əməkdaşlığın ən müxtəlif sahələrini əhatə etməkdədir. Azərbaycan və Qazaxıstan hökumətləri əsasən nəqliyyat-logistika sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyini görürlər. Bu istiqamətdə addımların atılmasını əhəmiyyətli hesab edirlər. Təsadüfi deyil ki, prezidentlərin görüşündə Rəqəmsal İnkişaf və Nəqliyyat naziri də iştirak edirdi. Onu da qeyd edim ki, Qazaxıstan Füzuli şəhərində Yaradıcılığın İnkişafı Mərkəzini inşa edərək Azərbaycana hədiyyə etmək istəyir. Bu, həm də subliminal mesajdır. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində Qazaxıstanın Azərbaycanı dəstəklədiyini nümayiş etdirir".

**İsmayıl Qocayev**

**Elan**

Səlimov Firuz Əhməd oğluna məxsus Sabunçu rayonu, Sovxoz Ramana, sosial evlər bina 12, mən. 44-ə verilmiş sənəd itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2321**

# İrəvan xanının nəticəsi Qarabağa gedib

## Əmir Əli Sərdari ilk səfəri işğaldan azad edilmiş Füzuli rayonundan başlayıb



**İrəvan xanının nəticəsi Əmir Əli Sərdari İrəvaninin ailə üzvləri ilə birlikdə Qarabağa ilk səfəri işğaldan azad edilmiş Füzuli rayonundan başlayıb.**

Bu barədə "Şərq"ə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Dövlət Komitəsinin dəstəyi və təşkilatçılığı ilə gerçəkləşən səfər zamanı qonağa Füzuli şəhər mərkəzinin və məscidin dağıntıları nümayiş etdirilib. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı rayon ərazisində dağıdılmış tarixi, mədəni və dini abidələr, törədilmiş ekoloji terror, post-müharibə dönəmində aparılan yenidənqurma və tikinti işləri barədə qonağa ətraflı məlumat verib.

Füzuli hava limanı ilə tanış olarkən Əmir Əli Sərdari İrəvani ilk təəssüratlarını Vəsilə Vahidqızının müəllifi və aparıcısı olduğu "Vətən uzaqda deyil" proqramı ilə bölüşüb. O bildirib ki, Bakıya ilk dəfə iki il öncə səfər edib: "Qarabağa səfərim arzu olaraq qalırdı. İndi isə mən buradayam. İnanılmazdır, mən Qarabağ bölgəsinə səfər edirəm. Ermənilərin burada törətdikləri dəhşətlidir. Amma eyni zamanda biz belə tikilini də görürük (hava limanını nəzərdə tutur). Bu tikinti işləri regionun simasını tamamilə dəyişir. Mən burada olduğuma görə çox xoşbəxtəm", - deyə İrəvan xanının varisi hisslərini ifadə edib.

*Qeyd edək ki, 1974-cü ildə Tehranda anadan olan Əmir Əli Sərdari İrəvani 2003-cü ildən Almaniyada yaşayır. Alman avtomobil sənayesində araşdırma və inkişaf sahəsində mühəndis kimi çalışır, eyni zamanda etnoqraf və tarixçi kimi də tanınır. O, yerli və beynəlxalq ictimaiyyətə İrəvan xanlığı haqqında dolğun məlumatların çatdırılmasında kifayət qədər fəallıq göstərən şəxslərdəndir.*

**Aygün**

# "50-60 yaşında müəllimə nə imtahan"

## Sertifikasiyadan bezən müəllimlər ərizə yazıb işdən çıxırlar

**Abituriyentlərin və tələbələrin ölkədəki təhsillə bağlı narazılıqları olduğu kimi müəllimlərin də müəyyən narazılıq və şikayətləri var. Belə ki, son günlər müəllimlər tərəfindən səslənən şikayətlərin çoxluğu diqqətləri cəlb edir. Onlar öz narazılıqlarını sosial media üzərindən insanlarla paylaşırlar. Təəssüflər olsun ki, narazılıqlarını bildirən müəllimlərlə yanaşı, öz ərizəsi ilə işindən çıxan müəllimlər də az deyil.**



***Elşən Qafarlı: "Həmin şəxslər elementar suallara cavab verə bilməyəcəklərinin fərqindədirlər"***

Onlar buna səbəb kimi əsasən əməkhaqlarının az olmasını, ədalətsizliyi, müəllimə qarşı olan hörmətsizlik və dəyərsizliyi göstərirlər.

"Səbəblər çoxdur, müəllimin gözdən salınması, haqsızlıq və s. Odur ki, daha gəlirli iş tapan kimi getməyə məcbur olurlar"- istifadəçi bildirib.

Bəzi müəllimlər isə tətbiq olunacaq sertifikasiya imtahanını bu vəziyyətin yaranmasına önəmli faktor kimi göstərirlər.

"Yazıq müəllim bu tətili necə keçirdiyini bir özü bilir, bir Allahı. Sertifikasiya sözünü eşitməkdən bezdik. 50-60 yaşında müəllimə nə imtahan? Soruşun görək, bu müəllimin sağlamlığı yerindədirmi?"- deyə istifadəçi qeyd edib.

Digər bir istifadəçi də bu fikirlə razılaşıb və əlavə edib ki, imtahandan kəsilib çıxmaqdansa, ərizə ilə işdən çıxmaq daha yaxşıdır.

Məsələyə münasibət bildirən şəxslərdən biri qeyd edib ki, o artıq 5 kişi müəllimin öz ərizəsi ilə işdən çıxmağının şahidi olub: "Sözün bitdiyi yerdəyik. Günahkar axtarmaq da mənasızdır. Çünki günah yenə müəllimlərin üstünə qalacaq".

Bir qisim insan isə müəllimlərin bu addımına birmənalı yanaşmayıb. Onların fikrincə, müəllimlər sonuna qədər mübarizə aparmalı və maaş az olsa da, bu peşəni layiqincə sona qədər yerinə yetirməlidir. Bu fikirdə olan müəllimlər bildirib ki, peşənin belə olduğunu öncədən anlayıb, seçmək lazımdır.

Təhsil eksperti Elşən Qafarlı müəllimlərin öz ərizələri ilə işdən çıxmalarına aydınlıq gətitib. O, "Şərq"ə açıqlamasında qeyd edib ki, belə bir vəziyyət 2014-2015-ci illərdə də yaşanmışdı. Ekspertin sözlərinə görə, həmin vaxt Bakı şəhəri üzrə 800-ə qədər müəllim diaqnostik qiymətləndirmədə iştirak etməmək üçün ərizə verib işdən çıxmışdı: "İndi də belə hallar var. Bu müəllimlər niyə ərizə yazdıqlarını yaxşı bilirlər. Çünki anlayırlar ki, onlar imtahanda minimum balı belə toplaya bilməyəcək. Bu da təbii ki, kənardan birmənalı qarşılanmayacaq. Bu baxımdan ərizə yazıb gedirlər. Düşünürəm ki, belə müəllimlərin sistemdən getməsinə heyifsilənmək lazım deyil. Hesab edirəm ki, bu mərhələdə sertifikasiya imtahanı həddən artıq yumşaq keçiriləcək. Elm və Təhsil Nazirliyi və əməkdaşları bunu dəfələrlə bildirib. Sertifikasiya ilə bağlı sınaq da keçirilib. Orada iştirak edən müəllimlər də sualların yetərincə sadə oduğunu qeyd edib. Zənnimcə, tədris etdiyi fənni minimum səviyyədə bilən müəllimlər üçün bu imtahan problem yaratmayacaq.

Təhsil milli məsələdir. Burada məsələ 5-10 müəllimin işləməsi yox, ölkəmizin gələcəyini qurtarmaqdır. Təhsilimiz şəxsiyyət və şagird yönümlüdür. Əgər müəllimlər sertifikasiyaya görə işdən çıxırsa, kaş bu addımı daha tez atardılar. Çünki həmin şəxslər elementar suallara cavab verə bilməyəcəklərinin fərqindədirlər. Onların addımını alqışlayıram. Düşünürəm ki, sertifikasiya sistemi ümumtəhsil həyatımızda çox problemlərə aydınlıq gətirəcək".

**Çimnaz Şahlar**

# Ermənilərin vəhşi izləri

## Laçın şəhərindən çıxan ermənilər məzarları qazıb, yaxınlarının meyitini də aparırlar



**Ermənilər 30 il əvvəl Qarabağa, işğal etdikləri yaşayış məntəqələrinə necə soxulmuşdularsa, bu gün də eyni vəhşiliklə ərazini tərk edirlər.**

Bu qədər zaman keçsə də, uzun illər ötsə də, dəyişməyən tək şey erməni xislətidir.

APA-nın Laçında olmuş çəkiliş qrupu ermənilərin 30 ildən sonra ərazini tərk edərkən törətdiyi vəhşilikləri lentə alıb.

Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarət etdiyi ərazilərdə qeyri-qanuni məskunlaşmış ermənilər bu gün Azərbaycan dövlətinin, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və təkidi nəticəsində torpaqlarımızı tərk etmək məcburiyyətində qalıblar.

Lakin ermənilər əraziləri işğal edəndə etdikləri kimi, hər yeri söküb-dağıdıb, yandırıb çıxırlar.

Laçın şəhəri və Zabux kəndini yandırmaq cəhdinin qarşısı alınan ermənilər yol kənarındakı ərazilərə, otlaq sahələrinə, yaşıllıqlara od vurublar.

Məqsədləri alovun geniş miqyas alaraq, meşələrə, dağlara yayılması olub. Lakin yanğının vaxtında söndürülməsi təbii fəlakətin qarşısını alıb.

Ermənilər xislətlərinə uyğun davranaraq, qeyri-qanuni məskunlaşdıqları Laçın şəhərində, Zabux və Sus kəndlərində yaxınlarının məzarlarını qazıb, meyitləri özləri ilə aparırlar.

Ərazidəki Su Elektrik Stansiyası da vandalizmə məruz qalıb.

Rusiya sülhməramlılarının nəzarəti altında olan bu ərazilərdə tikililər, evlər, kommunikasiya xətləri, elektrik dirəkləri, naqillər sökülür, yollar, borular və körpülər dağıdılır.

Bundan başqa, 30 il ərzində özgəsinin sərvətini yeyib doymayan acgözlər yol kənarındakı ağacları kəssələr də, görünür, aparmağa imkan tapmayıblar.

Ermənilər Kəlbəcərdə, Ağdamda olduğu kimi, Laçını da özlərinə layiq izlər qoyaraq tərk edirlər.

# Ölkədə bazar iqtisadiyyatı elan olunub

## Dövlət qurumları və məmurlar arıçıların işinə qarışmamalı, yalnız onlara dəstək olmalıdırlar



**Biləsuvar Rayon İcra Hakimiyyətinin rəsmisi Astara arılarının qanunsuz olaraq rayon ərazilərində yerləşdirilməsinə münasibət bildirib. O, arıçılara bir daha Nazirlər Kabinetinin 16 nömrəli qərarını xatırladaraq xəbərdarlıq edib.**

Bildirilib ki, Nazirlər Kabinetinin 16 nömrəli qərarı ilə arıların kənar rayonlara aparılması istiqamətləri müəyyən edilib: "Astaradan arıların Biləsuvara gətirilməsi yolverilməzdir. Çünki iqlim şəraiti eyni deyil. Məhz arıların Biləsuvara gətirilməsi buradakı arı ailələrinə pis təsir göstərib. Belə ki, burada arılar xəstələnib və tələf olub. Rayon icra hakimiyyəti olaraq biz bunun qarşısını almaq üçün müvafiq reydlər aparmışıq və onların sahibləri ilə maarifləndirmə işləri görmüşük. Həmçinin gələcəkdə belə neqativ halların baş verməməsi üçün müvafiq dövlət qurumlarına müraciət olunub".

Qeyd edək ki, arıçılıq Azərbaycanda illərdir fəaliyyət göstərən peşə sahələrindəndir. Bəs arılar başqa iqlimə daşındıqda nə baş verir? Bu sahə ilə məşğul olanlar nəyə diqqət etməlidirlər?

**Hansısa regionda arının yetişdirilməsi sahibkarın öz qərarı ilə olmalıdır deyən kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmli "Şərq"ə danışıb.** O bildirib ki, dövlət qurumları və məmurlar arıçıların işinə qarışmamalı, yalnız onlara dəstək olmalıdırlar: "Məmur-sahibkar münasibətlərini qanun tənzimləyir. Ölkədə bazar iqtisadiyyatı elan olunub və bunun da öz qaydası var. Bu qaydalara əsasən onlar istədikləri kimi mallarını istehlak edə bilərlər. Harda arıçılığı inkişaf etdirmək olar, harda arılar üçün yararlı bitkilər və çiçəklər var, sahibkarlar çox gözəl bilirlər. Onlar müstəqil olmalıdırlar və fəaliyyətlərinə inzibati qaydada heç bir müdaxilə edilməməlidir. Ölkəmizdə hər zaman arıçılığa dəstək göstərilib. Bu dəstək və stimullaşdırıcı tədbirlər artırılmalıdır. Elə şərait yaradılmalıdır ki, insanlar arıçılığın marağında olsun".

**Nihat Müzəffər**



# Xankəndidə partlayış

## Erməni bloger hadisənin gizli silah anbarında baş verdiyini açıqlayıb

**Azərbaycanın Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan Xankəndi şəhərində partlayış olub.**

Bəzi məlumatlara görə, evlərdən birində qaz balonu partlayıb, daha sonra yanğın başlayıb.

Digər məlumatda isə bildirilir ki, tikililərdən birində başlayan yanğının ardınca partlayış baş verib.

Hadisə nəticəsində ölən və yaralananlar barədə məlumat verilmir.

Xankəndi şəhərində partlayışla bağlı yeni məlumatlar ortaya çıxıb.

APA xəbər verir ki, oksigen avadanlıqları sexində yanğın baş verdiyi, nəticədə yüksək təzyiqli balonların partladığı bildirilir.

Xankəndi şəhərində partlayışın yeri və səbəbləri barədə yeni məlumatlar ortaya çıxıb.

APA xəbər verir ki, erməni bloger Roman Baqdasaryan "Teleqram" hesabında 1 il əvvəl də eyni yerdə partlayış baş verdiyini yazır.

"Bura bir il əvvəl partlayış olan yerdir. Qarabağ klanının nümayəndələri burada gizli qumbaralar və hər cür oğurlanmış silah saxlayırdılar. Həmin vaxt bu fakt gizlədildi.

Görünür ki, qumbaraların bir hissəsi hələ də burada saxlanılırmış. Dərzi sexi gizli silah saxlama yeridir?" - deyə Baqdasaryan yazır.

# Türkiyə şirkətləri daha fəaldır

## Qarabağdakı quruculuq işlərinə digər ölkələr də qatıla bilər



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) rəhbəri Saleh Məmmədov Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən danışıb. Qurum sədri bildirib ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərindəki yol layihələrinə xaricdən yalnız Türkiyə şirkətləri cəlb olunub. Nazir əlavə edib ki, həmin ərazilərdə Agentliyin öz təsərrüfatları, Azərbaycan şirkətləri də Turkiyədən olan 5 şirkətlə bərabər fəaliyyət göstərirlər. Bunlardan başqa hər hansı xarici ölkədən heç bir təşkilat yoxdur".**

İqtisadçı Pərviz Heydərov "Şərq"ə deyib ki, işğaldan azad edilmiş ərazilərdə yol tikintisi də daxil olmaqla aparılan bütün yenidənqurma və bərpa işlərində Azərbaycan şirkətləri ilə yanaşı, əsasən Türkiyə şirkətləri iştirak edir. Ekspert vurğulayıb ki, dövlət başçısı işğaldan azad edilmiş bölgələrə səfərləri zamanı dəfələrlə bəyan edib ki, digər ölkələrə məxsus xarici şirkətlər də Qarabağda quruculuq işinə qoşula bilərlər: "Bununla bağlı xarici ölkələrə məxsus şirkətlərə heç bir qadağa, məhdudiyyət yoxdur. Bildiyimə görə, Rusiyanın, İsrailin və İranın bir sıra şirkətləri işğaldan azad edilmiş ərazilərdə quruculuq prosesinə cəlb edilmək arzusunda olduqlarını bildiriblər. Hətta Rusiya və İsrail şirkətləri bəzi işlərdə bilavasitə iştirak da ediblər. Ötən gün məlum oldu ki, Qazaxıstanın da müəyyən şirkətləri Qarabağda fəaliyyət göstərmək istəyirlər. Yol infrastrukturunun qurulmasında, sadəcə, Azərbaycan və Türkiyə şirkətlərinin iştirak etməsində heç bir siyasi-iqtisadi səbəblər axtarmaq lazım deyil. Azərbaycanda yol tikintisində müasir tələblərə cavab verən, əlində hər cür texniki vasitələri, avadanlıqları olan, təcrübəli kadrlara malik qurumlar, şirkətlər var. Yol tikintisi ilə məşğul olan şirkətlərin fəaliyyətinin nəticəsini digər bölgələrimizdə müşahidə etmişik və fikirlərimiz yüksək olub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi yol çəkilişinə və keyfiyyətinə görə MDB məkanında, hətta Avropa ölkələri sırasında öncül yerləri tutur. Artıq ucqar dağ kəndlərinə belə yeni asfalt yollar çəkilir. O baxımdan yol infrastrukturunun qurulmasında Azərbaycan və qardaş Türkiyə şirkətlərinin iştirakı təbii qarşılanmalıdır. Bu məqam digər ölkələrə məxsus şirkətlərin də prosesə cəlb olunmasına maneçilik törətmir".

**İsmayıl Qocayev**

# Vaxta və yanacağa qənaət

## Ödənişli yollar daha rahat və sürətli olacaq



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ölkənin ilk ödənişli yolunu bu ilin sonuna kimi istifadəyə verməyi planlaşdırır. Bunu qurumun İdarə Heyətinin sədri Saleh Məmmədov Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı yol infrastrukturu layihələrinə cəlb edilməsi üçün alınmış yol texnikası və maşın-mexanizmlərin təqdimatında deyib.**

Onun sözlərinə görə, yolun tikintisi başa çatmaq üzrədir: "Yolda cəmi 27 kilometr asfaltlanmamış hissə qalıb. Hazırda ödəniş üçün turniketlərin qoyulması işi aparılır. Eyni zamanda yolla hərəkət edəcək ağır tonnajlı maşınların müəyyənləsdirilməsi üçün tərəzilər quraşdırılır. Yəqin ki, bu ilin sonuna kimi yolun istismara verilməsinə dair üzərimizə götürdüyümüz öhdəliyi yerinə yetirəcəyik".

**Ödənişli yolun digər yollardan fərqini "Şərq"ə dəyərləndirən nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, bu yol sürücülərin daha rahat və sürətli səyahətini təmin edəcək:** "Ödənişli yolla bərabər ödənişsiz yollar da eyni keyfiyyətdə və eyni rahatlıqla istismara veriləcək. Ənənəvi yol hazırda təmirdədir. Onun alternativi isə ödənişli yoldur. Yəqin ki, əsas yolun təmirinə qədər ödənişli yollar istifadəyə verilməyəcək. Bir müddət sonra sürücülər hər iki yoldan rahat istifadə edə biləcəklər. Ödənişli yolla digər yolun müəyyən fərqləri də var. Həmin yol heç bir xətlə kəsişmir, şəhər və qəsəbələrin içindən keçərək sürət həddinə təsir etmir. Təxmini digər yoldan 20 km daha yaxındır. Bəzi sürücülər vaxtlarına qənaət etmək üçün bu yoldan istifadə edəcək. Bu yollar xüsusən də Bakı-Quba-Rusiya sərhədi boyunca hərəkət edən xarici yük və minik avtomobillərində daha çox maraq yaradacaq. Vətəndaşlarımız xaricə səfər edəndə də pullu yollara daha çox üstünlük verirlər. Düşünürəm ki, onlar ödədikləri pulu çölə atmırlar. Əksinə, vaxtda və yanacaqda qənaət etmiş olurlar".

**Nihat Müzəffər**